Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 29-da Türkiyə prezidenti Abdullah Gülə zəng edib.

Dövlət başçısı Türkiyə prezidentinə ad günü və Türkiyənin milli bayramı - Respublika Günü münasibətilə təbriklərini çatdırıb, ona ali dövləti fəaliyyətində yeni-yeni uğurlar, möhkəm cansağlığı, qardaş Türkiyə xalqına firavanlıq arzulayıb.

Türkiyə prezidenti diqqət və təbriklərə görə Azərbaycan prezidentinə minnətdarlığını bildirib.

Dövlət başçıları Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün sahələrdə uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.